*Müəllifin arxivindən*

# VƏTƏN YAZIÇILARIN DÜŞÜNCƏSİ İLƏ



17 iyun 2021-ci ildə Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə "Vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsi"nin qaliblərinin təltifetmə mərasimi keçirildi. Tədbirin aparıcısı əməkdar artist Elşən Cəbrayılov idi. Birinci olaraq söz Mədəniyyət naziri, cənab Anar Kərimova verildi.

Cənab nazir Vətən müharibəsi zamanında nazirlik tərəfindən irəli sürülən təşəbbüslər, layihələr barədə çıxış etdi. Erməni mənfurlarının başlatdığı müharibənin, qaçqınlığın soydaşlarımıza vurduğu maddi, mədəni, mənəvi zərbəni canı-qanı ilə hiss edən cənab nazir onu da dedi ki, artıq Qarabağla bağlı yazılarda qəmginlik yoxdur, üzülmə hissləri yoxdur, nikbinlik var, Zəfər var, Böyük Qayıdış ab-havası var. Yeni ab-havalı, Qələbəli, Zəfərli şeir, esse və hekayələri özündə əks etdirən bu layihə 2020-ci ilin oktyabr ayında gerçəkləşdirildi. Mən bu layihədən həmin ilin noyabr ayında, Vətən müharibəsi zəfərlə bitdikdən sonra xəbər tutdum və müharibənin bitməsinə saatlar qalmış yazdığım "Zəfərin nişanəsi" adlı şeirimi təqdim etdim. Cənab nazir Vətən müharibəsi bitdikdən sonra Cənab Ali Baş Komandanımızın Şuşamız ilə bağlı gördüyü işləri, Şuşaya ilk səfəri, Şuşanın mədəniyyət paytaxtı elan edilməsi, "Xarı bülbül" musiqi festivalı və digər önəmli təşəbbüslərdən, həmçinin, "Azərbaycan kitabının dünyaya tanıdılması" layihəsi, "Qızıl kəlmə" mükafatı və digər böyük işlərdən də söz açdı. Cənab nazirin bu təşəbbüsünü ürəkdən alqışlayıram. O, sadə, olduqca səmimi nazir olmaqla yanaşı, həm də sürətli bir şəkildə işləyir, uğurlardan uğurlara yol çəkir. Bu təşəbbüsü ilə təqdirəlayiq olduğu üçün cənab nazir Anar Kərimova və belə qayğıkeş , uşaq və gənclərə diqqət ayıran insanları vəzifəyə təyin edən, Ulu Öndərimizin davamçısı cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

Cənab nazirin çıxışından sonra layihədə mühüm qərarı – qalibin kim olmasını müəyyənləşdirən komissiyanın üzvləri çıxış etdilər. Sonra isə komissiya üzvləri mükafatı peşəkar qiraətçilər Sabirə Abdullayeva və Xəzər Süleymanın qaliblərin yazılarından parçalar oxuduqdan sonra qaliblərə təqdim etdilər. Qaliblər peşəkar yaradıcı şəxslər, həvəskar yaradıcı şəxslər və 10-15 yaş arası uşaqlar kateqoriyalar olmaqla üç kateqoriyaya bölünmüşdü. Mükafatların bir neçəsini cənab nazir və nazir müavini cənab Vaqif Əliyev özü təqdim etdi.




Tədbirin sonlarında mənim də "Zəfərin nişanəsi" adlı şeirim Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin keçirtdiyi Vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsinin "10-15 yaş arası uşaqlar" kateqoriyası üzrə Fəxri Fərmanına layiq görülmüşdür. Müsabiqə tamamilə anonim keçirilmişdir. Şeirim 321 ədəbi nümunənin içərisindən seçilmişdir. Bu, mənim üçün böyük fəxr, eyni zamanda böyük məsuliyyət idi. Mən bu "Fəxri Fərman"ı dövlətimizdən alırdım. Bu mükafat dövlət mükafatı sayılırdı. Səhnədə deyə bilməsəm də yazımda bildirirəm ki, bu mükafatı haqqında onlarla məqalə və şeirlər yazdığım, 220-dən çox Vikipediya səhifəsi açdığım, "Şəhadət şərbətini dadan Şəhidlər" adlı layihə başlatdığım baş tacımız olan Şəhidlərimizə və həmin gün bu dünyadan gedişinin 13-cü ildönümü olan əziz Tərlan nənəmə həsr edirəm.

Fəxri Fərman mənə verildikdən sonra aparıcıdan qısa bir çıxış etməyim üçün xahiş etdim. Aparıcı mənim üçün şərait yaratdı. Mən çıxışımda 4 kitab, yəni "Dünyamsan Azərbaycan", "Hərdən uçmaq istəyirəm", "Ulu Naxçıvanım" və "Könüllərə yol gəzirəm" adlı kitabların, 100-dən çox məqalənin müəllifi olduğumu iştirakçıların diqqətinə çatdırdıqdan sonra kitablarımı cənab nazir Anar Kərimova təqdim etdim. Sadəliyin , səmimiliyin ən gözəl nümunəsini bir daha Anar Kərimovda gördüm. Belə ki, mən səhnədən düşüb zalda ön cərgədə əyləşmiş nazirimizə yaxınlaşmaq istəyərkən o, mənə işarə etdi ki,"sən gəlmə, mən səhnəyə çıxaram, kitablarını təqdim edərsən". Uşaqlara və böyüklərə hörmət və qayğı göstərən, mədəniyyətə uğurlar bəxş edən cənab nazir bu dəfə də nümunəvi bir şəxsiyyət olduğunu göstərdi. Sonra cənab nazir səhnəyə çıxdı və mən kitablarımı elə səhnədə ona verdim. O, mənə uğurlar arzuladı və çox şad oldu. Mən çox sevindim, sevincimin həddi-hüdudu yox idi. Bu hədsiz sevinci mənə bəxş etdiyinə, bu uğuru qazanmağımda mənə kömək etdiyinə görə valideynlərim başda olmaqla, Mədəniyyət Nazirliyinə və şəxsən cənab nazirimiz Anar Kərimova bir daha dərin minnətdarlığımı bildirirəm.

Vətənimlə və Vətənimin biz gənclərə dəyər verən ziyalıları ilə fəxr edirəm! Müsabiqədə Fəxri Fərmana layiq görülmüş "Zəfərin nişanəsi" adlı şeirimi dəyərli oxucularımın nəzərinə çatdırıram.

**ZƏFƏRİN NİŞANƏSİ**

*(İşğaldan azad olunmuş kəndlərimizə həsr edirəm)*

Bu günüm dirilişin,
Zəfərin nişanəsi.
Qovuruq düşmənləri,
Onların batıb səsi.

Salakətin - göz yaşım,
Çevrilibdir sevincə.
Bayrağımı toxuyur,
Qız-gəlin incə-incə.

Zərdanaşen - bir zərdir,
Qədrini bu yurd bilir.
"Zərdan" qalır yerində,
"Şen"i isə silinir.

Zoğalbulaq - sərindir,
Quyuları dərindir,
Kim deyir ki, gözəl yurd,
Mənfur ermənininindir?

Şəkərim, Şəkərciyim,
Mənimdir bircəciyim,
O gözəl diyarlarım,
Mollularım, Xociyim.

Muxtarım, həm Daşaltım,
Mənim bəxtəvərlərim,
Çox rahat uyuyurlar,
Qəhrəman Şəhidlərim.

Şux dayanıbdır Şıxlım,
Əsgərimin önündə.
Qərərim bayram edir,
Şanlı Zəfər günündə.

Dövlətyarlı dəstəkdir,
Bizim dövlətimizə.
Öz yurduna, oğluna,
Zabit, əsgərimizə.

Xocalıyla görüşür,
Çərəli və Xocahan,
Sizin ilə sevinir.
O bütöv Azərbaycan!

Kim deyər boyun əyər?
Tinli və Boyunəkər!?
Səngərlərdə ərənim,
Düşmənini məhv edər!

Ey səfillər, qaçın, ha!
Ordum çatdı Laçına!
Rədd ol, çıx get, qarayan,
Azad oldu Güləbird,
Azad oldu Səfiyan!
Onlardır qan, həm də can,
Vətənim Azərbaycan!

O iki Dilağarda,
Şəhidimin qanıdır!
Yurdun Azığı, Tuğu,
Bir bütöv Azərbaycanıdır!

Gözəl Yal Pirəhmədlim,
Domi və Ələsgərlim!
Olmusunuz əsgərlim,
Olmusunuz ərənlim!

Susanlıq və Akakum
Həm də Aşağı Sirik,
Bu yerlərdə, ey əsgər,
Sən Zəfər tağını tik!

Tuğ isə Xocavəndin,
İlk işğaldakı kəndi...
İndi o da ağlayır,
Yəqin ki, sevincdəndi!

Gözəl Hüseynalılar,
O ocağın qalanar,
Söyüdlüdə bağ-bağat,
Yaşıllıqlar salınar!

Bitməyib bu dastanım,
Tökülmədi az qanım,
Əsas odur ki, vardır,
Şanlı Azərbaycanım!
Canım Azərbaycanım!
Qanım Azərbaycanım!

Zaman-zaman bölünmüş,
Çox məşəqqətlər görmüş,
İlhamı zəfər hörmüş,
Şanım Azərbaycanım!
Canım Azərbaycanım!

***18.06.2021***

***"Kredo" qəzeti №23 (1053)***
***23 iyun, 2021-ci il***



***Sevindik NƏSİBOĞLU,***
***11-ci sinif şagirdi, şair-publisist,***
***AJB üzvü***